

İdris Şükürlü

# Ziyalı xalqın nur çırağıdır

Müdriklik insanın ən ali məziyyətlərindən biridir. O həm də inanılmış, sabit və etibarlı sərvətdir. Fəlsəfi düşüncə tarixində deyildiyi kimi, qüvvət, gözəllik və həqiqətə tapınma insanın bu ali məziyyətə sahib olması haqqı və səlahiyyəti ilə bağlıdır.Müdriklik zəka ilə qarışdırılmamalıdır.

Müdrik olmadan da zəkalı olmaq mümkündür. Müdrik insanlar, qeyri-əminliyə dözə bilir və ən çətin məsələlərin belə həlinin olduğuna pozitiv yanaşırlar. Onlar, doğru və yanlışı ayıra bilirlər. Müdrik insanlar çətinlik zamanı sakit qalmağı bacarırlar. Onlar geriyə çəkilib daha geniş mənzərəni görə bilirlər.

Onlar düşüncəli və dürüstdürlər. Onlar, biliklərinin həddini anlayır, alternativ yolları nəzərdən keçirir və dünyanın daim dəyişdiyini unutmurlar...

Müdriklik ali məziyyəti çiynində daşıyan,dəyərli alim,istedadlı yazar, möhtərəm ziyalımız,AYB-nin üzvü Rövşən Ağayevdir. Ağayev Rövşən Xosrov oğlu 1949-cu ildə dünyaya gəlib.

Texniki və humanitar ixtisaslar üzrə ali təhsil aldıqdan sonra 8 il - 1972-ci ildən 1980-cı ilədək neft sənayesi müəssisələrində fəaliyyət göstərib.

Düzgün həyat yolu seçən, məsuliyyəti, özünətələbkarlığı əsas prinsip kimi qəbul edib arzuların qanadında yüksək zirvələrə doğru irəliləyən, yiyələndiyi peşəyə uyğun olaraq ölkəsinə, xalqına xidmət göstərən, ”Ziyalı xalqın nur çırağıdır” ifadəsini reallıqda nümayiş etdirən insanlarla bağlı dəyərli fikirlər söyləmək sanki bir çağırışdır.Bir öncül ziyalı kimi xalqına,millətinə çıraq olmağı özünə hədəf bilən Rövşən müəllim 1983-cü ildən 1992-ci ilədək həm Respublikmızın müxtəlif mətbu orqanlarında işləyib,həm də ali məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur.Göstərdiyi yüksək fəaliyyətə görə 1990-cı ildə Azərbaycan Respublikasının Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ”Hər bir şəxs bilməlidir ki, dövlət



qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır” hikmətamiz kəlamı dövlətinə,xalqına xidmət edən ,bu missiyanı mənəvi borc bilən hər bir vətəndaşa bir mesajdır.Möhtərəm ziyalımız Rövşən müəllim 20 ildən artıq müddət ərzində ölkənin ali dövlət hakimiyyəti orqanında - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında xidmət edib.İşlədiyi müddətdə fərqlənmiş , işlədiyi kollektivin dərin hörmətini qazanmışdır.Rövşən müəllim 26 ildir ki,Yeni Azərbaycan Partiyasının üzvüdür və dövlətinə sadiq bir vətəndaş kimi daim xalqının,millətinin mənafeyini müdafiə etmişdir.

Bir cəmiyyətin inkişaf səviyyəsi onun təhsililə bilavasitə bağlıdır. Belə ki, təhsil vətəndaşın xarakterini tərbiyə edib onun özündən əmin, məsuliyyətli insan olmasına xidmət edir və doğru davranış qaydaları qazandırır. Çünki təhsil insanın özünü tanımasına, həqiqəti dərk etməsinə kömək edir. Cəmiyyətin inkişafında mühüm faktorlardan biri də şübhəsiz təhsildir. Azərbaycanda da bu sahəyə böyük önəm verilir.Möhtərəm ziyalımız Rövşən Ağayev bu dəfə Azərbaycan təhsilə öz töhfələrini vermək məqsədilə 2014-cü ilin dekabr ayndan Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyində çalışmağa başladı.40-dan artıq elmi məqalənin müəllifi olması,məqalələrin xeyli hissəsi dörd kitabda toplu kimi çapdan çıxması ,2017-ci ildə Elm və Təhsil Nazirliyinin Fəxri Fərmanı , 2020-ci ildə Azərbaycan Qırmızı Aypara Cəmiyyətinin 100 illiyi (1920-2020) yubiley medalı ilə təltif olunması , dörd broşur-metodik tövsiyənin həmmüəllifi (onlardan biri ingilis dilinə tərcümə edilərək nəşr olunub) olması dəyərli alimimiz Rövşən müəllimin bu sahədə məhsuldar insan olmağının bariz nümunəsidir.

Möhtərəm ziyalımız Rövşən Ağayev yaradıcı insandır,petik ruhludur.O, üç bədii-sənədli əsərin müəllifidir.

Həmin əsərlərdən biri polyak, digəri isə fransız dilinə tərcümə olunaraq nəşr edilib. 250-dək publisistik məqalənin müəllifi olan istedadlı yazar Rövşən Ağayev 2023-cü ildən AYB-nin üzvüdür.

Hər bir ailə kiçik bir dövlətdir. Rövşən müəllim gözəl ailə başçıdır, bir qızı və iki nəvəsi var.

75 illik yubileyi münasibətilə möhtərəm ziyalımız və dəyərli alimimiz, istedadlı yazarımız Rövşən müəllimə uzun ömür və cansağlığı arzulayırıq. Allah Sizi qorusun və pənahında saxlasın. Var olun.

Ədalət .- 2024.- 23 avqust (№32).-S.13.